# GÖYƏRÇİN

İSSN-0207-4710
2011-ci il
5





Hekayə



Şeir



Nağıl



RAFİQ YUSİFOĞLU

## GƏZMƏK, GÖRMƏK HƏVƏSİ

Yoxdur bizim vətənin
Bu dünyada əvəzi.
Qəlbimi tərk eləmir
Gəzmək, görmək həvəsi.

Çiçək ətri gətirir
Əsən səhər rüzgarı.
Qəlbimə nur ələyir
Zirvənin bəyaz qarı.

Zəminin ortasında
Közə dönüb lalələr.
Zirvədən enə-enə
Saz çalır şəlalələr.

Çiçəklərdən dad alıb
Bu yerlərin qaymağı.
Şırıldayan bulaqlar
Olub şəfa qaynağı.

Yamaclarda, düzlərdə
Günəş xalı toxuyur.
Gözəlliyi görəndə
Qəlbim nəğmə oxuyur.

İndi yaman kövrəlib
Daşa dönən ürəyim.
Göyə meydan oxuyur
Quşa dönən ürəyim...

Sərindi, şəfalıdı
Bu yerlərin havası.
İnsana zaval yoxdu
Təmizdisə hava, su...

## CIRTDAN ƏLİFBA ÖYRƏNİR

Bu sehrli sandıqda
Otuz iki açar var.
Bir-birinə bənzəmir
Ancaq ki bu açarlar.

Elmin qapılarını
Onlarsız açmaq olmaz.
Uşaqlar, çəkinməyin,
Yaxına gəlin bir az.

Dostlarıma dost olsun
Özümə dost sandığım.
Ümidimiz sənədi,
Açıl, açıl, sandığım!

Uşaqların üzündə
Dünyanın sevinci var.
Bu sandığın içində
Otuz iki inci var...

Tək-tək işə yaramır
Ancaq ki bu açarlar
Bir yerdə olan zaman
Hər kilidi açarlar...





## KÜLƏK VƏ BUDAQ

Mer-meyvə dərmək üçün
Girmişəm bizim bağa.
Ağac elə hündürdü,
Əlim çatmır budağa.

Arılar vızıldaşır,
Yatan güllər oyanır.
Gün işığı altında
Ərik çıraq tək yanır.

Budağa bax, budağa,
Deyir balaca Kərəm:
-Külək əyir ki, onun
Üstündən meyvə dərəm...

## KÜLƏK

Mən küləyəm, küləyəm,
Uçuram eldən-elə.
Salamlar aparıram
Çiçəkdən, güldən gülə.

İstəyirəm bağların
Məhsulunu artıram.
Bu çiçəyin tozunu
O, çiçəyə qatıram.

Gur saçlarda darağam,
Ciyərdə nəfəsəm mən.
Hava dəyişsin deyə
Gərək hər gün əsəm mən.

Yelpikləyib, havadan
İstini götürürəm.
Dağdakı sərinliyi
Arana gətirirəm.

Hey əsirəm, əsirəm,
Sanma ki, boş dururam.
Sulara sığal çəkib,
Dənizi coşdururam.

Zoğları qurumuşlar
Tir-tir əsir qorxudan.
Meşəni silkələyib,
Oyadıram yuxudan.

Nurlandırır yolumu
Göylərdə çaxan şimşək,
Qabağıma qatıram
Buludları çoban tək.

Çəmənlərə, çöllərə
Hey yağış daşıyıram.
Əsməsəm, ölərəm mən,
Əsirəm, yaşayıram.

Köhnə dağılmalıdı,
Toz eləyən mənəm, mən.
Dünyanın havasını
Təzələyən mənəm, mən...

Görmədiyim yerləri
Görməyə tələsirəm.
Gəzirəm bu dünyanı,
Gözəlliyə əsirəm,-
Hey əsirəm, əsirəm...

## AYSUNUN SUALI

Ürək həyəcanlanır
Təbiət gülür üzə.
Düşübdür ayın əksi
Cilvələnən dənizə.

Çatılıbdır qaşları,
Baxın bizim Aysuya.-
Gülümsəyib deyir ki,
Niyə girib Ay suya?!

Rəssam
Mətanət

